AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

# AYLIQ İNFORMASİYA BÜLLETENİ

# İYUL

## İSTEHLAKÇILARLA İŞ DEPARTAMENTİ





2023

İSTEHLAKÇILARLA İŞ DEPARTAMENTİNİN AYLIQ İNFORMASİYA BÜLLETENİ AYLIQ OLARAQ BAŞ VERƏN YENİLİKLƏR BARƏDƏ MƏLUMATLANDIRMA MƏQSƏDİ İLƏ HAZIRLANIB

# İstehlakçıların və investorların hüquqlarının qorunması sahəsində görülmüş tədbirlərin qısa xülasəsi

İyul, 2023 İstehlakçılarla iş departamenti

## “Bank mübahisələrinin uğurlu həlli yolları” mövzusunda elmi konfrans keçirilmişdir

10.07.2023-cü il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Banklar Assosiasiyası, Sosial Tədqiqatlar Mərkəzi və Mediasiya Şurasının birgə təşkil etdiyi “Bank mübahisələrinin uğurlu həlli yolları” mövzusunda elmi konfrans keçirilmişdir.




Konfransda Mərkəzi Bankın və Mediasiya Şurasının rəhbərliyi, Milli Məclisin deputatları, mediatorlar, ekspertlər və media nümayəndələri iştirak etmişdir. Görüş zamanı maliyyə xidməti istehlakçılarının və investorlarının hüquqlarının müdafiəsi istiqamətində görülmüş işlər barədə ətraflı məlumat verilmiş, eyni zamanda maliyyə mübahisələri zamanı alternativ həll yollarından biri kimi mediasiyanın əhəmiyyəti barədə müzakirə aparılmışdır. Mediasiya Şurası tərəfindən barışıq sazişi nümunəsi konfrans iştirakçılarına təqdim edilmişdir.

## Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi internet səhifəsində yeniliklərin edilməsinə dair

Vətəndaş məmnuniyyətini daim diqqət mərkəzində saxlayan Azərbaycan Respublikasının Mərkəzi Bankı rəsmi internet səhifəsində bir sıra yeniliklər edərək investorların və emitentlərin istifadəsinə vermişdir. Belə ki, saytın "İstehlakçıların və investorların hüquqları" bölməsinə yeni "Kapital bazarı" adlı altbölmə əlavə edilmişdir. Həmin altbölmədə səhmdarların hüquq və vəzifələri və emitentlərin illik və yarımillik hesabatlarının təqdim edilməsinə dair bir sıra zəruri məlumatlar göstərilmişdir. Eyni zamanda "Emitentin idarəetmə hesabatlarına dair tələblər haqqında Qaydalar" və emitentlər tərəfindən təqdim edilməli olan məlumatlar yeni yaradılmış altbölmədə yerləşdirilmişdir. Emitentlər bu başlığa keçid etdikdə həmin qanunvericilik aktı ilə tanış ola və idarəetmə hesabatına dair məlumatlara nəzər sala biləcəklər. Yeniliklərin həyata keçirilməsi səhmdarların və səhmdar cəmiyyətlərinin zəruri məlumatlara rahat şəkildə əlçatanlılığın təmin edilməsi məqsədi daşıyır.



## "Sığorta mübahisələrinin uğurlu həlli yolları" mövzusunda elmi konfrans keçirilmişdir

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi ilə bağlı davamlı tədbirlər görülməkdə və yeni layihələr həyata keçirilməkdədir. Belə tədbirlərdən biri olaraq Mərkəzi Bank, Azərbaycan Sığortaçılar Assosiasiyası, Sosial Tədqiqatlar Mərkəzi və Mediasiya Şurasının birgə təşkil etdiyi "Sığorta mübahisələrinin uğurlu həlli yolları" mövzusunda elmi konfrans keçirilmişdir.




Konfransda Mərkəzi Bankın və Mediasiya Şurasının rəhbərliyi, Milli Məclisin deputatları, mediatorlar, ekspertlər və media nümayəndələri iştirak etmişdir. Görüş zamanı maliyyə xidməti istehlakçılarının və investorlarının hüquqlarının müdafiəsi istiqamətində mövcud vəziyyət və perspektivlər müzakirə edilmiş, eyni zamanda maliyyə mübahisələrinin həlli zamanı mübahisələrin alternativ həlli yollarından biri kimi mediasiyanın əhəmiyyəti vurğulanmışdır. Konfransda həmçinin sığorta mübahisələrinin mediasiya yolu ilə həllində Mediasiya Şurası tərəfindən təklif edilən nümunəvi barışıq sazişi barədə məlumat verilmişdir.

## Mərkəzi Bankının və Mediasiya Şurasının əməkdaşlığı çərçivəsində "Atəşgah" Sığorta Şirkətinin baş ofisində "Mediasiya otağı" fəaliyyətə başladı




Mübahisələrin məhkəmədənkənar alternativ həlli üsullarından biri kimi mediasiya fəaliyyətinin inkişafı ilə bağlı qarşılıqlı əməkdaşlıq çərçivəsində görülən tədbirlərdən biri olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankının dəstəyi ilə "Atəşgah" Sığorta Şirkəti ASC-nin baş ofisində "Mediasiya otağı" istifadəyə verilmişdir. "Mediasiya otağı"nın sığortaçı ilə müştərilər arasında mübahisələrin operativ həllinə nail olunması məqsədi ilə istifadəsi nəzərdə tutulmuşdur.



## Azərbaycan Respublikasının Mərkəzi Bankı və “Regional İnkişaf” İctimai Birliyinin təşkilatçılığı ilə Bərdə şəhərində vətəndaşların səyyar qəbulu keçirilmişdir

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi ilə bağlı görülən mütəmadi tədbirlərin davamı olaraq 31.07.2023-cü il tarixində Bərdə şəhərində “Regional İnkişaf” İctimai Birliyinin təşkilatçılığı ilə vətəndaşların səyyar qəbulu həyata keçirilmişdir.



Qəbul zamanı vətəndaşların müraciətləri dinlənilmiş, onlara müraciətlərində qeyd olunan məsələlərlə bağlı müvafiq izahlar verilmiş, əlavə araşdırma tələb olunan məsələlərlə bağlı vətəndaşların ərizə yazmasına şərait yaradılmaqla yazılı müraciət etmək hüquqları təmin edilmişdir. Həmçinin qəbul zamanı şifahi müraciətlərini ünvanlayan vətəndaşlardan zəruri məlumatlar əldə edilməklə müraciətlərinin araşdırmasının nəticəsi barədə əlavə məlumat veriləcəyi bildirilmişdir.



# VƏTƏNDAŞLARIN QƏBULU

Daxil olan zənglər | Yazılı müraciətlər | Vətəndaşların qəbulu




## Whatsapp üzərindən qeydiyyata alınmış müraciətlər haqqında məlumat




- Mərkəzi Bankın rəsmi cavab məktubunun əldə edilməsi ilə bağlı
- Əks Əlaqə
- Nəzarət subyekti ilə əlaqə saxlanılmasında yaranan çətinliklə bağlı
- Digər

## Təqaüdçülər üçün maliyyə savadlılığı təlimləri keçirilmişdir

Azərbaycan Respublikasının Mərkəzi Bankı maliyyə savadlılığının artırılması məqsədilə genişmiqyaslı tədbirlərin həyata keçirilməsini davam etdirir. Növbəti tədbir 14 iyul 2023-cü il tarixində "Yaşa mərkəzində" III Bahar təşəbbüs qrupunun 20 nəfərə yaxın iştirakçısı üçün "Əmanətlərin sığortalanması" və "Nağdsız ödənişlərin üstünlükləri" mövzuları üzrə təşkil olunmuşdur.



Təlim iştirakçılarına Mərkəzi Bankın elektron resursları olan Maliyyə savadlılığı portalı (www.bizimpullar.az), Virtual təhsil platforması (www.edu.e-cbar.az) və Maliyyə məhsul və xidmətlərinin məlumat axtarış sistemi (www.infobank.az) haqqında da məlumat verilmiş, mövzular ətrafında müzakirələr aparılmış və onları maraqlandıran suallar cavablandırılaraq interaktivlik təmin olunmuşdur.

Mövzular Əmanətlərin Sığortalanması Fondununun hüquqşünası Aysel Həsənova, Risklərin idarə edilməsi üzrə mütəxəssisi Fərid Kazımzadə, Mərkəzi Bankın Ödəniş sistemi və hesablaşmalar departamentinin Milli Ödəniş Sisteminin inkişafı və nəzarəti şöbəsinin böyük mütəxəssisi Xəyalə Məmmədova və Mərkəzi Bankın İstehlakçılarla iş departamentinin Maliyyə savadlılığı şöbəsinin böyük mütəxəssisi Lamiyə Qaralova tərəfindən təqdim olunmuşdur.

## Təqaüdçülər üçün maliyyə savadlılığı təlimləri davam etdirilir

21 iyul 2023-cü il tarixində “Yaşa mərkəzində” III Bahar təşəbbüs qrupunun növbəti auditoriyası olan 21 nəfər iştirakçısı üçün “Əmanətlərin sığortalanması” və “Nağdsız ödənişlərin üstünlükləri” mövzuları üzrə təşkil olunmuşdur.
Təlim iştirakçılarına Mərkəzi Bankın elektron resursları olan Maliyyə savadlılığı portalı (www.bizimpullar.az), Virtual təhsil platforması (www.edu.e-cbar.az) və Maliyyə məhsul və xidmətlərinin məlumat axtarış sistemi (www.infobank.az) haqqında da məlumat verilmiş, mövzular ətrafında müzakirələr aparılmış və onları maraqlandıran suallar cavablandırılaraq interaktivlik təmin olunmuşdur.



Mövzular Əmanətlərin Sığortalanması Fondunun hüquqşünası Aysel Həsənova, Əmanətlərin Sığortalanması Fondunun Risklərin idarə edilməsi üzrə mütəxəssisi Fərid Kazımzadə, Mərkəzi Bankın Ödəniş sistemi və hesablaşmalar departamentinin Milli ödəniş sisteminin inkişafı və nəzarəti şöbəsinin böyük mütəxəssisi Xəyalə Məmmədova və Mərkəzi Bankın İstehlakçılarla iş departamentinin Maliyyə savadlılığı şöbəsinin böyük mütəxəssisi Lamiyə Qaralova tərəfindən təqdim olunmuşdur.

## "FINCA Azerbaijan" qeyri-bank kredit təşkilatının Gəncə şəhərindəki müştəriləri ilə görüş keçirilmişdir




31 iyul 2023-cü il tarixində "FINCA Azerbaijan" qeyri-bank kredit təşkilatının Gəncə şəhərindəki filialının müştərilərinə Maliyyə savadlılığı mövzusunda seminar keçirilmiş və onlara Azərbaycan Respublikasının Mərkəzi Bankının Maliyyə savadlılığına dair elektron resursları təqdim edilmişdir.

Seminardan əvvəl "FINCA Azerbaijan"-nın Ərazi üzrə meneceri Amin Quliyev, Marketinq şöbəsinin rəhbəri Oqtay Məmmədov müştəriləri salamlamış və onların maliyyə savadlılığının artırılmasının əhəmiyyətindən və şirkətlərinin bu istiqamətdə gördükləri işlərdən bəhs etmişdilər.

"Maliyyə savadlılığı və onun komponentləri", "Büdcə planlaşdırılması", habelə Mərkəzi Bankın elektron resursları (https://bizimpullar.az/, https://infobank.az/, https://edu.e-cbar.az/) haqqında İstehlakçılarla iş departamenti Maliyyə savadlılığı şöbəsinin rəisi Xumar Hüseynova təqdimat etmişdir.

Seminar zamanı biznes və kənd təsərrüfatı sahibləri öz fikirlərini bildirmiş və suallar vermişdilər. İştirakçıların sualları cavablandırılmışdır. Tədbirdə 30 nəfər iştirak etmişdir.




**93** İmtahan

**81** Sertifikat

Təlim, seminar, vebinar **3**

İştirakçı **71**



## ELEKTRON RESURSLAR

### Ziyarətçilər




### Baxışlar




bizimpullar.az | edu.e-cbar.az | infobank.az